# Həftəlik *Bülleten*

**095**
**5 İyun 2025**



- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Sumqayıt Kimya Sənaye Parkının rezidenti ilk ixracını həyata keçirib.**

İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti “Kartaş Kimya” MMC ilk dəfə olaraq məhsul ixracına başlayıb.

Agentliyə istinadən xəbər verilir ki, birinci mərhələdə şirkət tərəfindən Özbəkistana təqribən 21 ton həcmində tikinti kimyəvilərin ixracı həyata keçirilib.

Cari ilin 30 aprel tarixində dövlət başçısının iştirakı ilə açılışı olan “Kartaş Kimya” MMC Sumqayıt Kimya Sənaye Parkının ərazisində sement əsaslı quru qarışıqların, su izolyasiya sistermlərinin, epoksid və poliuretan/poliurea əsaslı döşəmə materialların, sement üyüdücü əlavələrin, beton qatqılarının və onun əsas xammalının istehsalı ilə məşğul olur.



**Xankəndidə özəl sektor tərəfindən yeni yaşayış binaları tikiləcək.**

Xankəndi şəhərində aparılan genişmiqiyaslı tikinti quruculuq işləri çəricəvəsində yeni yaşayış binaları inşa ediləcək.

Bu barədə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov bu gün keçirilən Qarabağ Təhsil və Tərəfdaşlıq Forumunda panel çıxışı zamanı bildirib.

Qeyd edib ki, Xankəndi şəhərində inşa edilən yaşayış binalarının əksəriyyəti ötən əsrin 1950-1960-cı illərində inşa olunub: "Şəhərin müxtəlif küçə və prospektlərində yerləşən və o zamanlar Azərbaycan hökümətinin maliyyə dəstəyi ilə tikilmiş hündürmərtəbəli yaşayış binalarının əksəriyyəti artıq istismar müddətini başa vurub. Əksəriyyəti qəzalı vəziyyətdə olan binalar müvafiq qurumların rəyi əsasında sökülərək yerində müasir, Azərbaycanın memarlıq üslubuna uyğun hündürmərtəbəli yaşayış binaları tikiləcək. İnşaat işləri dövlət büdcəsi hesabına yox, özəl sektor tərəfindən tikinti şirkətləri vasitəsilə həyata keçirəcək. Bu da doğma Xankəndidə dayanıqlı məskunlaşmaya və yeni iş yerlərinin yaranmasına səbəb olacaq. Bir sözlə, özəl sektor tərəfindən həyata kecirləcək tikinti işləri bölgədə iqtisadiyyatın inkişafına müsbət təsir göstərəcək".



**Azərbaycanda tikinti materiallarının təhlükəsizliyinə dair texniki reqlament hazırlanıb.**

Azərbaycanda "Tikinti materiallarının, məmulat və konstruksiyalarının təhlükəsizliyi haqqında" texniki reqlament hazırlanıb.

Bu barədə Prezident yanında Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Agentliyi məlumat yayıb.

Qeyd olunub ki, ictimai müzakirə başa çatdıqdan sonra texniki reqlament layihəsinin təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilməsi nəzərdə tutulur.

Bu texniki reqlamentlə həmçinin insanların həyat və ya sağlamlığının, ətraf mühitin, əmlakın və dövlətin maraqlarının mühafizəsi, istehlakçıları çaşdıran hərəkətlərin qarşısının alınması məqsədilə tikinti materiallarının uyğunluğunun qiymətləndirilməsinə dair tələblər, nişanlanma üsulları, forması və bununla bağlı öhdəliklər, eləcə də tikinti materialları ilə əlaqəli istehsal, saxlanma, daşınma və qablaşdırma proses və prosedurları da müəyyən edilir.



**“Araz Vadisi İqtisadi Zonası”nda boya fırçası istehsal ediləcək.**

“Desen MM” MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının rezidentliyi statusu verilib.

Bu barədə İZİA-ya istinadən xəbər verilir.

Məlumata görə, yeni qeydiyyata alınan rezident tərəfindən sənaye parkının ərazisində boya fırçası və boya rulosu istehsal ediləcək. Layihənin investisiya dəyəri 1,9 milyon manat təşkil edir.

Bildirilib ki, Türkiyə və Çinin qabaqcıl texnologiyalarından istifadə ediləcək müəssisədə istehsal olunacaq məhsulların daxili bazara satışı ilə yanaşı, ixracı da həyata keçiriləcək.

Qeyd edək ki, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında hazırda 17 sahibkarlıq subyektinə rezidentlik, 3 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sənaye Parkında görülmüş işlərə sahibkarlar tərəfindən 35 milyon manatdan çox investisiya yatırılıb, 100-ə yaxın daimi iş yeri yaradılıb.



**Nazir müavini: “Mərkəzləşdirilmiş istilik təchizatı yaradılacaq, çoxmərtəbəli binalara qaz daxil olmayacaq”**

Bir neçə ildən sonra çoxmərtəbəli binalara təbii qaz daxil olmayacaq, daha təhlükəsiz mühit yaranacaq.

Bunu bu gün Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi tərəfindən təşkil edilən “İstilik təchizatı haqqında” yeni qanun layihəsi ilə bağlı ictimai dinləmədə energetika nazirinin müavini Elnur Soltanov bildirib.

Nazir müavini deyib ki, indi əsas təhlükəli sayılan məsələ təbii qazın çoxmərtəbəli binalara daxil olması ilə bağlıdır: “Bu qanunun tətbiqindən sonra çoxmərtəbəli binalara təbii qaz daxil olmayacaq”.

Qeyd edək ki, yeni qanun mərkəzləşdirilmiş istilik təchizatı sistemlərinin yaradılmasını nəzərdə tutur.



### “Milli Brendlərin Pərakəndə Zirvəsi -2025” keçirilib.

“Biznes Mərkəzi Klubu”nun təşkilatçılığı ilə “Milli Brendlərin Pərakəndə Zirvəsi – 2025” adlı mötəbər forum keçirilib. Forumun rəsmi hissəsi “Biznes Mərkəzi Klubu”nun İdarə Heyətinin sədri Rüfət Nadirlinin açılış nitqi ilə başlayıb. Forumda çıxış edən Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov, “Biznes Mərkəzi Klubu”nun sahibkarlığa verdiyi töhfələri yüksək qiymətləndirib. Tədbirin açılış mərasimində “KOBSKA” İH-in sədri Ramin Şərifov və UİD Arge və Eğitim Başkanı Cengiz Aygör də çıxış edərək, bu cür forumların beynəlxalq əməkdaşlıq və investisiya imkanlarının genişlənməsində mühüm rol oynadığını bildiriblər. Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Səkinə Babayeva tədbirin sahibkarlar üçün yeni əməkdaşlıqlar qurmaq və şəbəkələşmək baxımından əhəmiyyətli olduğunu qeyd edib. Forum çərçivəsində Pərakəndə sektorunun inkişafına həsr olunmuş panel müzakirələri keçirilib. Panel müzakirələrində pərakəndə sektorunda mövcud vəziyyət, rəqabət mühiti, rəqəmsal transformasiya, istehlakçı davranışlarının dəyişməsi, eləcə də yerli brendlərin gücləndirilməsi yolları müzakirə edilib. Spikerlər yeni dövrün tələblərinə uyğun strateji yanaşmaları bölüşərək, brendlərin beynəlxalq bazarlara çıxışı, rəqəmsal marketinqin rolu, müştəri təcrübəsinin fərdiləşdirilməsi, loqistika və təchizat zəncirinin optimallaşdırılması kimi mövzularda fikir mübadiləsi aparıblar.



**İş və istirahət günlərinin yerləri dəyişdirilib.**

İş və istirahət günlərinin yerləri dəyişdirilib.
Bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.
Qərarla iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 27 iyun iş günü ilə 21 iyun istirahət gününün yerləri dəyişdirilib.
Bununla da ardıcıl dörd gün - iyunun 26-sı (Silahlı Qüvvələr Günü), 27-si, 28-i və 29-u qeyri-iş günləri olacaq.



**ATMİA-da Macarıstan Milli Tikinti Podratçılar Federasiyasının departament rəhbəri David Tibor ilə işgüzar görüş keçirilib.**

2 iyun 2025-ci il tarixində ATMİA-da Macarıstan Milli Tikinti Podratçılar Federasiyasının departament rəhbəri David Tibor ilə işgüzar görüş keçirildi. Görüş zamanı iki ölkə arasında tikinti materialları və inşaat sahəsində əməkdaşlıq perspektivləri, ekoloji texnologiyalar və təcrübə mübadiləsi imkanları müzakirə olundu. Görüşdə Macarıstan səfirliyinin İqtisadi və Ticarət Attaşesi Daniel Brener və ASK-nın Beynəlxalq əlaqələr və dayanıqlı inkişaf şöbəsinin müdiri Afət Məmmədova da iştirak etdilər. ATMİA olaraq, üzv şirkətlərin beynəlxalq təcrübəyə inteqrasiyasını dəstəkləməyə davam edirik.



**BDPTM-nin "Elektrik xəttlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis" ixtisasının tələbələrinin ATMİA üzvü Caspian Cable Systems zavoduna tanışlıq turu təşkil edilib.**

3 iyun 2025-ci il tarixində Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin "Elektrik xəttlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis" ixtisasının tələbələrinin tanışlıq turu ATMİA üzvü Caspian Cable Systems zavoduna təşkil edilib. Tələbələr zavodun iş prinsipləri və texnoloji prosesləri barədə ətraflı məlumatlandırılıb. Sözügedən təhsil müəssisəsi ilə əməkdaşlıq çərçivəsində təşkil olunan bu cür tədbirlər tələbələrə mürəkkəb istehsal proseslərini daha dərindən başa düşməyə, müxtəlif tikinti materiallarının yaradılmasına sərf olunan əməyin qiymətləndirməyə imkan verir, həmçinin, peşəkar kadr hazırlığında önəmli rol oynayır.



**ATMİA üzvü Vega Design şirkətinin təqdimat tədbiri keçirilmişdir.**

Assosiasiyamızın tam hüquqlu və aktiv üzvlərdən biri olan Vega Design şirkətinin təqdimat tədbiri keçirilmişdir. Tədbirdə ATMİA üzv tikinti və layihə-smeta şirkətlərinin rəhbərləri iştirak etdilər. ATMİA üzvləri biir araya gələrək Vega Design MMC-nin gördüyü peşəkar işləri ilə daha yaxından tanış oldular, bir-birləri ilə ünsiyyətdə olaraq yeni əməkdaşlıqların təməlini qoydular.



**ATMİA üzvləri Azpromo-nun təşkilatçılığı ilə keçirilən Azərbaycan - Çin əməkdaşlıq forumunda iştirak etdilər.**

5 iyun 2025-ci il tarixində ATMİA üzvləri Azpromo-nun təşkilatçılığı ilə keçirilən Azərbaycan - Çin əməkdaşlıq forumunda iştirak etdilər. İqtisadiyyat nazirinin müavini Elnur Əliyevin, Çinin Azərbaycandakı səfiri xanım Lu Mei, KOBİA-nın idarə heyətinin sədri cənab Orxan Məmmədovun və Azpromo-nun icraçı direktoru cənab Yusif Abdullayevin tədbirdə çıxışlarından sonra üzvlərimiz B2B görüşlərinə qatılıblar. Üzvlərimiz iki ölkə arasında iqtisadi-ticari əlaqələrin gücləndirilməsi, investisiya imkanları və biznes əməkdaşlığını Çindən gələn iş adamları ilə müzakirə etdilər.





# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: FURNITURE & INTERIOR KAZAKHSTAN 2025**

**Tarixlər: 11-13 iyun 2025-ci il,**

**Məkan: Atakent Beynəlxalq Sərgi Mərkəzi, Almatı (Qazaxıstan)**

Ev və Ofis mebeli, interyer dizaynı, aksesuarlar, avadanlıq və texnologiyalar, işıqlandırma sistemləri və bitirmə materiallarına həsr olunmuş beynəlxalq sərgi

**Sərginin adı: WARSAW HOME ELECTRONICS 2025**

**Tarixlər: 13-15 iyun 2025-ci il,**

**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**

Müasir bir ev üçün Varşava Beynəlxalq elektronika sərgisi. 'Varşava Ev Elektronikası' sənaye konfransları və seminarlarla zənginləşdirilmiş effektiv və dinamik təqdimatlar təklif edir.

**Sərginin adı: THE BIG 5 CONSTRUCT EGYPT 2025**

**Tarixlər: 17 - 19 iyun 2025-ci il,**

**Məkan: EIEC (Misir Beynəlxalq Sərgi Mərkəzi), Qahirə (Misir)**

Misir Beynəlxalq Tikinti və İnşaat Sərgisi, tikinti sektorunda qabaqcıl yenilikləri və texnologiyaları nümayiş etdirir

**Sərginin adı: EURASIA RAIL 2025**

**Tarixlər: 18-20 iyun 2025-ci il,**

**Məkan: İstanbul Sərgi Mərkəzi / İstanbul Fuar Mərkəzi / CNR Expo, İstanbul (Türkiyə)**

EURASIA RAIL yüzlərlə iştirakçı və ziyarətçiyə ev sahibliyi edir, həm dövlət, həm də özəl sektordan innovativ mühəndislik, məhsul və xidmətləri özündə əks etdirən Türkiyənin vaqon sektoru üçün əsas şəbəkə və işgüzar tədbirdir.

**Göytəpədə xəstəxana tikintisi davam edir - 9,7 MİLYONLUQ TENDER KEÇİRİLİR.**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tikilməkdə Olan Müəssisələrinin Müdiriyyəti açıq tender elan edir.
Elanda Cəlilabad Rayonunun Göytəpə şəhərində 60 çarpayılıq xəstəxananın tikintisi və avadanlıqla təchizatı işlərinin davamı (II mərhələ) nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əkrəm Səlifli, Satınalma üzrə mütəxəssis
Email : ftprovision@gmail.com
Əlaqə telefonnu: +994 12 493 03 18



## AĞDAM, FÜZULİ VƏ XOCAVƏND RAYONLARINDA BƏRPA,TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.

Ağdam, Füzuli Və Xocavənd Rayonlarında Bərpa,tikinti Və İdarəetmə Xidməti Publik Hüquqi Şəxsi açıq tender elan edir. Elanda "Ağdam şəhəri 5-ci yaşayış massivi, məhəllə O-130 üzrə binaların tikintisi işləri"nin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Emil Quliyev, Baş məsləhətçi
Email: emil.guliyev@afxbti.gov.az
Əlaqə telefonnu: +994 50 640 00 04



**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ TENDER KEÇIRİR.**

Azərbaycan Respublikası Milli Məclisi açıq tender elan edir.
Elanda Cari təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əzim Gözəlov, Satınalma mütəxəssisi
Email: azim.gozalov@meclis.gov.az
Əlaqə telefonnu: +994 12 492 31 26



**AĞSTAFA RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ AĞSTAFA ŞƏHƏR İNZİBATİ ƏRAZİ DAİRƏSİ ÜZRƏ NÜMAYƏNDƏLİYİ TENDER ELAN EDİR.**

Ağstafa Rayonu İcra Hakimiyyəti Başçısının Ağstafa Şəhər İnzibati Ərazi Dairəsi Üzrə Nümayəndəliyi açıq tender elan edir.
Elanda Kommunal binaların əsaslı təmiri işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Altun Hüseynov, Aparıcı-mütəxəssis
Email: togrulali@gmail.com
Əlaqə telefonnu: +994 55 257 20 50



## "ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.

"Əsaslı Tikinti Və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir. Elanda Heydər Əliyev adına sarayda əsaslı təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elmir Murquzov, Satınalma mütəxəssisi
Email: tender@culture.gov.az
Əlaqə telefonnu: +994 99 412 56 50 (147448)



## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RESPUBLİKA SEYSMOLOJİ XİDMƏT MƏRKƏZİ TENDER ELANI.

Azərbaycan Milli Elmlər Akademiyasinin Respublika Seysmoloji Xidmət Mərkəzi açıq tender elan edir.
Elanda Tikili və avadanlıqların cari təmiri üzrə işlərin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

İskəndərov Ramiz, Baş direktorun müavini
Email: amea-rsxm@mail.ru
Əlaqə telefonnu: +994 12 497 74 91





**www.atmia.az**